İNFORMATİV MƏTNLƏR VƏ ONLARI SƏCİYYƏLƏNDİRƏN XÜSUSİYYƏTLƏR

LƏTAFƏT BAYRAMOVA
ARTİ-nin Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Azərbaycan dili metodikası) ixtisası üzrə doktorantı. E-mail: latafat.bayramova@arti.edu.az
https://orcid.org/0009-0009-9623-3581

Məqaləyə istinad:
Bayramova L. (2026). İnformativ mətnlər və onları səciyyələndirən xüsusiyyətlər.. *Azərbaycan məktəbi.* № 2 (715), səh. 127—134

DOI:
10.30546/32898065.2026.2.0175.68

ANNOTASİYA

Müasir dövrdə oxu yüksək intellektual fəaliyyət növlərindən biri kimi qiymətləndirilir və məqsədyönlü fəaliyyət kimi səciyyələndirilir. Bu fəaliyyət fərdin dünyagörüşünü genişləndirir, anlama səviyyəsini dərinləşdirir, təcrübənin yenidən qurulmasına şərait yaradır, davranışa təsir göstərir və fərdi inkişafın səmərəli şəkildə təmin olunmasına imkan verir. Oxu fəaliyyətində şagirdlərə təqdim olunan mətn növlərindən biri də informativ mətnlərdir. Bu baxımdan, məqalədə informativ mətnlərin mahiyyəti, onlarla bağlı yaranan problemlər, funksiyaları, strukturu və tədris prosesindəki rolu araşdırılır. Eyni zamanda informativ mətnlərin növləri və onların təlim-tərbiyə prosesində şagirdlərin tənqidi düşünmə və analitik bacarıqlarının inkişafına təsiri izah olunur.

Açar sözlər: Oxu bacarığı, informativ mətn, məzmunun təhlili, əsas ideya, tənqidi düşüncə.

Məqalə tarixçəsi
Göndərilib: 18.10.2025
Qəbul edilib: 16.01.2026

INFORMATIVE TEXTS AND THEIR DEFINING CHARACTERISTICS

LATAFAT BAYRAMOVA
PhD Student, Institute of Education of the Republic of Azerbaijan (Specialty: Theory and Methodology of Education and Training – Azerbaijani Language Methodology). E-mail: latafat.bayramova@arti.edu.az
https://orcid.org/0009-0009-9623-3581

To cite this article:
Bayramova L. (2026). Informative Texts and Their Defining Characteristics. *Azerbaijan Journal of Educational Studies.* Vol. 715, Issue II, pp. 127–134

DOI:
10.30546/32898065.2026.2.0175.68

Article history
Received: 18.10.2025
Accepted: 16.01.2026

ABSTRACT

In the contemporary era, reading is widely recognized as one of the most advanced intellectual activities and is conceptualized as a purposeful cognitive process. Through this process, an individual's worldview may be transformed, the depth of comprehension enhanced, prior experiences restructured, behavioral patterns influenced, and overall personal development effectively facilitated. Among the various types of texts presented to students within the educational process, informative texts occupy a particularly significant position. This article examines the nature of informative texts, the challenges associated with their comprehension, as well as their structural characteristics, functions, and pedagogical significance. Furthermore, it analyzes different types of informative texts and elucidates their role in fostering students' critical thinking and analytical skills within the broader context of education and personal development.

Keywords: Reading skills, informative texts, content analysis, main idea, critical thinking.

GİRİŞ

Oxu qavrayışı müasir pedaqogika, psixolinqvistika və təlim psixologiyasının əsas tədqiqat istiqamətlərindən biri kimi çıxış edir. Bu anlayış yalnız mətnin səlis və düzgün oxunması ilə məhdudlaşmır; o, eyni zamanda şagirdin mətnin məzmununu dərk etməsi, informasiyanı analiz və sintez etməsi, əsas və köməkçi fikirləri fərqləndirməsi, mətnin məqsədini və müəllif mövqeyini müəyyənləşdirməsi, həmçinin oxunan material əsasında yeni biliklər formalaşdırması kimi çoxmərhələli idrak proseslərini əhatə edir. Bu baxımdan, oxu qavrayışı həm dil, həm də məntiqi-idraki fəaliyyətin inteqrasiyasına əsaslanan kompleks psixoloji göstərici hesab olunur.

Oxu qavrayışı prosesi bir sıra idrak mexanizmlərinin qarşılıqlı əlaqəsinə əsaslanır. Buraya diqqət, yaddaş, təxəyyül, məntiqi təfəkkür və dil bacarıqları daxildir. Oxucu mətnin məzmununu qavrayarkən əvvəlki bilik və təcrübəsini aktivləşdirir, yeni informasiyanı mövcud bilik bazasına inteqrasiya edir və mənalandırma əməliyyatı baş verir. Bu mənada, oxu qavrayışı həm koqnitiv, həm də metakoqnitiv bacarıqların inkişafını stimullaşdırır.

Təlim prosesində oxu qavrayışı dil bacarıqlarının formalaşması ilə yanaşı, həm də tənqidi və yaradıcı düşünmə qabiliyyətinin inkişafına xidmət edir. Şagirdin mətni səthi səviyyədə deyil, dərin məna qatlarında anlamaq bacarığı onun elmi-nəzəri bilikləri mənimsəmək və tətbiq etmək potensialını əhəmiyyətli dərəcədə artırır. Beləliklə, oxu qavrayışı təlimin məqsədinə çevrilir və fənlərarası əlaqələrin qurulmasında, eləcə də şagirdin ümumi akademik nailiyyətlərinin yüksəldilməsində mühüm determinant kimi çıxış edir.

Müasir tədris yanaşmaları (konstruktivizm, metakoqnitiv öyrənmə, diferensiallaşdırılmış təlim və s.) oxu qavrayışının inkişafını şagirdin fəal öyrənmə prosesinin mərkəzinə yerləşdirir. Təcrübə göstərir ki, oxu qavrayışı yüksək olan şagirdlər yalnız humanitar fənlərdə deyil, riyaziyyat, elm və texnologiya kimi sahələrdə də daha müstəqil və analitik düşünmə qabiliyyətinə malik olurlar. Buna görə də oxu qavrayışı fənlərarası kompetensiyaların – informasiya savadlılığının, tənqidi düşünmənin, problem həlletmə və yaradıcılıq bacarıqlarının formalaşmasının əsas baza komponenti sayılır. Oxu qavrayışının qiymətləndirilməsi və inkişafı istiqamətində aparılan müasir tədqiqatlar (məsələn, PISA və PIRLS kimi beynəlxalq qiymətləndirmə proqramları) göstərir ki, şagirdlərin oxu qavrayışı səviyyəsi onların uzunmüddətli akademik uğurlarını və sosial adaptasiya qabiliyyətlərini proqnozlaşdırmaq baxımından etibarlı göstəricidir. Bu səbəbdən, oxu qavrayışının inkişaf etdirilməsi təkcə dil tədrisinin deyil, bütövlükdə təhsil sisteminin strateji prioritetlərindən biri kimi qəbul edilməlidir.

İNFORMATİV MƏTNLƏRİN ÇƏTİNLİYİ VƏ QAVRANILMASI PROBLEMİ

İnformativ mətnlərlə bağlı əsas problem şagirdlərin mətni oxuyub anlamaqda, məzmunu təhlil və dəyərləndirməkdə çətinlik çəkməsidir. Pardo (2004) oxu qavrayışını oxucu ilə mətn arasında baş verən qarşılıqlı əlaqə nəticəsində yaranan mənanın qurulması prosesi kimi izah edir. Burada oxucunun əvvəlcədən malik olduğu bilik və bacarıqlar mühüm rol oynayır. Günəş (2007) isə "məna qurulması" anlayışını daha dərindən təhlil edərək qeyd edir ki, oxucu mətn üzərində işləyərkən əvvəlki bilikləri ilə uyğun olan məlumatları seçir, onları şərh edir və zehni şəkildə dəyişərək yeni bir məna yaradır. Əvvəllər mətndəki sözlərin düzgün tələffüzü oxu qavrayışının əsas şərti hesab olunurdu. Lakin aparılan tədqiqatlar göstərib ki, qavrayış prosesi təkcə dil səviyyəsində deyil, həm də psixoloji, pedaqoji və mühit faktorları ilə sıx əlaqədardır (Xamrayeva, 2004). Müəllim, tədris mühiti, istifadə olunan strategiyalar və mətnin mahiyyəti bu prosesdə mühüm rol oynayır.

İnformativ mətnlər oxuculara yeni məlumat vermək məqsədi ilə yazılır (Weaver və Kintsch, 1991). Bu mətnlərin xüsusiyyəti onların mürəkkəb və strukturca yüksək səviyyəli olmasıdır (Akyol, 2006). Məhz bu struktur xüsusiyyəti

onların tədrisini və qavranılmasını nisbətən çətinləşdirir. Digər tərəfdən, narrativ, yəni hekayə formasında olan mətnlərə nisbətən informativ mətnlər daha abstrakt anlayışları əhatə edir (Presley, 2000; Saenz və Funchs, 2002; Akyol, 2008).

Məsələn, informativ mətnlərdə tez-tez səbəb-nəticə əlaqələri, müqayisələr, statistik məlumatlar və texniki terminlər olur. Bu isə oxucudan daha yüksək səviyyədə analitik düşünmək və mətnin strukturunu anlamaq bacarıqları tələb edir. Singer, Harkness və Stewart (1997) bildirirlər ki, informativ mətnlər nə qədər mürəkkəb və abstrakt olsa, onların içində istifadə olunan dil quruluşu da nə qədər çətin olsa, oxucuların bu mətnləri anlaması bir o qədər çətinləşir.

Bəzi hallarda müəllimlər informativ mətnləri sadəcə məlumat ötürmək vasitəsi kimi təqdim edir və onların qavranılmasına yönəlmiş interaktiv metodlardan istifadə etmirlər. Bu yanaşma şagirdlərin mətnlə məzmun əlaqəsi qurmasını, əsas fikri ayırd etməsini və anlayışı dərinləşdirməsini çətinləşdirir.

İbtidai məktəbin ilk illərində informativ mətnlərə kifayət qədər önəm verilməməsi də tədris prosesində müşahidə olunan əsas problemlərdəndir. Bunun başlıca səbəblərindən biri müəllimlərin şagirdlərin informativ mətnləri oxumaqla avtomatik şəkildə onları anlayacaqlarını zənn etməsidir (Read, Reutzel & Fawson, 2008). Lakin bu yanlış yanaşma nəticəsində 3-cü və 4-cü siniflərdən etibarən şagirdlərdə oxu və anlama səviyyəsində nəzərəçarpacaq geriləmə müşahidə olunur.

Nəticədə, növbəti təhsil səviyyələrində şagirdlər artan anlama tələblərinə cavab verməkdə çətinlik çəkirlər. Xüsusilə 4-cü sinif səviyyəsində informativ mətnlərin sistemli və məqsədyönlü tədrisi, onların gələcəkdə, xüsusilə də orta təhsil səviyyəsində qarşılaşacaqları elmi və informativ xarakterli mətnləri daha rahat qavraması üçün həlledici rol oynayır (Hall, Sabey, & McClellan, 2005).

Buna görə də, informativ mətnlərin öyrədilməsi təhsil prosesinin ilkin mərhələlərindən etibarən məqsədyönlü şəkildə həyata keçirilməlidir. Erkən yaş dövrlərindən şagirdlərdə informativ mətnlərlə işləmə bacarıqlarının formalaşdırılması onların gələcəkdə daha mürəkkəb idrak fəaliyyətlərini icra etməsinə baza yaradır. Müasir pedaqoji və psixoloji tədqiqatlar (Duke & Bennett-Armistead, 2003; Pressley, 2006) göstərir ki, oxu qavrayışının inkişafı biliklərin əldə edilməsi, saxlanması və tətbiqi ilə birbaşa əlaqəlidir. Bu baxımdan, informativ mətnlərin tədrisi yalnız dil təliminin deyil, bütövlükdə idrak fəaliyyətinin təşkili və inkişafının mühüm komponentidir.

İnformativ mətnlərin tədrisində əsas məqsəd şagirdin mətnin struktur və semantik xüsusiyyətlərini anlamaq, əsas və köməkçi fikirləri fərqləndirmək, məlumatlar arasında məntiqi əlaqə qurmaq və mətnin kommunikativ məqsədini müəyyənləşdirmək bacarığını formalaşdırmaqdan ibarətdir. Bunun üçün müəllimlər təlim prosesində müxtəlif pedaqoji modellər, interaktiv metodlar və strategiyalardan (məsələn, SQ3R (Survey, Question, Read, Recite, Review) modeli, metakoqnitiv nəzarət strategiyaları, qrafik təşkilatçılar, problem əsaslı oxu tapşırıqları və s.) istifadə etməlidirlər. Bu yanaşmalar şagirdlərin oxu zamanı həm məzmunu dərk etməsini, həm də öz öyrənmə prosesinə nəzarət etməsini təmin edir.

İnformativ mətnlərlə işləmə prosesi təkcə məlumatların ötürülməsi deyil, həm də şagirdin analitik düşünmə, sintez, ümumiləşdirmə, nəticə çıxarma və tənqidi qiymətləndirmə kimi ali idrak bacarıqlarının formalaşmasına xidmət edir. Oxu zamanı şagird yalnız verilmiş faktları qəbul etmir, həm də onları mövcud biliklərlə əlaqələndirir, yeni mənalar yaradır və fərdi idrak təcrübəsini genişləndirir. Beləliklə, informativ mətnlərin öyrədilməsi koqnitiv və metakoqnitiv bacarıqların eyni zamanda inkişafına səbəb olur.

Bu tip mətnlərin tədrisi şagirdlərin fənlərarası inteqrasiyasını da gücləndirir. İnformativ mətnlərdə təqdim olunan məlumatların elmi, tarixi, sosial və texnoloji kontekstlə əlaqələndirilməsi onların ümumi dünyagörüşünü formalaşdırır və biliklərin tətbiqinə yönəlmiş öyrənmə mühitini yaradır. Nəticədə, şagirdlər informasiyanı yalnız qəbul edən deyil, həm də

onu təhlil, şərh və yeni kontekstlərdə istifadə edən aktiv öyrənənlərə çevrilirlər. Bu səbəbdən, informativ mətnlərin öyrədilməsi müasir kurikulumlarda fənlərarası kompetensiyaların – informasiya savadlılığının, tənqidi düşünmənin, problem həll etmək və yaradıcı tətbiq etmək bacarıqlarının inkişafında əsas vasitə kimi nəzərdən keçirilir. Müəllimlər bu prosesdə fasilitator rolunda çıxış etməli, şagirdlərə mətnlə müstəqil işləmək, nəticə çıxarmaq və öyrəndiklərini praktik vəziyyətlərdə tətbiq etmək imkanları yaratmalıdırlar.

Beləliklə, informativ mətnlərin məqsədyönlü tədrisi oxu qavrayışını sadə mətn anlamasından çıxararaq onu elmi-idraki fəaliyyətin struktur elementi səviyyəsinə yüksəldir. Bu yanaşma təhsil sisteminin əsas məqsədi olan özünü idarə edən, tənqidi düşünən və öyrənməyə motivasiyalı fərdlərin formalaşmasına xidmət edir.

İNFORMATİV MƏTNLƏRİN STRUKTURU VƏ ONLARIN FUNKSİYASI

İnformativ mətnlər təlim prosesində mühüm əhəmiyyət kəsb edən mətn növlərindəndir. Onların əsas məqsədi oxucunu müəyyən bir mövzu haqqında obyektiv, dəqiq və sistemli şəkildə məlumatlandırmaq, eyni zamanda idrak fəaliyyətini stimullaşdırmaqdır. Bu tip mətnlərdə müəllifin əsas vəzifəsi faktları düzgün seçmək, onları ardıcıl və məntiqi şəkildə təqdim etməklə oxucunun mövzu barədə bilik səviyyəsini artırmaqdır. İnformativ mətnlər, əsasən, elmi, tarixi, texnoloji, sosial və mədəni sahələrə dair faktlara əsaslanır və oxucuda reallığın müxtəlif aspektləri haqqında obyektiv təsəvvür formalaşdırır.

İnformativ mətnlərin struktur quruluşu müəyyən sistemlilik və məntiqi ardıcıllıq prinsiplərinə əsaslanır. Adətən, bu cür mətnlər başlıq, giriş, əsas hissə və nəticədən ibarət olur. Başlıq mətnin əsas məzmununu qısa və konkret şəkildə ifadə edir, oxucuda ilkin maraq oyadır və mətndə təqdim edilən məlumatlar haqqında ümumi təsəvvür yaradır. Giriş hissəsində mövzunun aktuallığı, məqsədi və əhəmiyyəti göstərilir, oxucuya nədən bəhs olunacağı aydın şəkildə təqdim olunur. Əsas hissə informativ mətnin mərkəzi və ən geniş hissəsidir. Burada faktlar, dəlillər və arqumentlər ardıcıl şəkildə təqdim edilir, hadisə və proseslər izah olunur, müqayisələr aparılır. Nəticə hissəsində isə əsas fikirlər ümumiləşdirilir, əldə olunan məlumatlardan çıxarılan nəticələr və mümkün tətbiq sahələri göstərilir.

İnformativ mətnlərdə dil və üslub xüsusiyyətləri də onların idrak funksiyasını gücləndirir. Bu mətnlərdə ifadə tərzi sadə, aydın, məntiqi və obyektiv olur; emosional yüklü ifadələrdən, subyektiv münasibətdən və bədii vasitələrdən istifadə uyğun hesab edilmir. Məlumatın elmi əsaslı və dəqiq şəkildə təqdim olunması üçün terminlərdən, statistik göstəricilərdən, qrafik və cədvəllərdən, həmçinin vizual materiallardan geniş istifadə olunur. Belə yanaşma oxucunun diqqətini cəlb etməklə yanaşı, məlumatların yadda saxlanmasını və dərin mənimsənilməsini təmin edir.

Tədqiqatçılar qeyd edirlər ki, informativ mətnlər şagirdlərdə analitik və tənqidi düşünmək, səbəb-nəticə əlaqələri qurmaq, faktla rəyi fərqləndirmək, obyektiv mühakimə yürütmək kimi bacarıqların formalaşmasına şərait yaradır (Kərimov, 2015; Duke & Bennett-Armistead, 2003). Bu baxımdan, informativ mətnlərin tədrisi yalnız oxu və yazı bacarıqlarının inkişafına deyil, həm də elmi düşüncə tərzinin formalaşmasına, məlumatların emalı və interpretasiyası üzrə metakoqnitiv bacarıqların inkişafına xidmət edir.

Nəticə etibarilə, informativ mətnlər təhsil sistemində sadəcə məlumat ötürən vasitə deyil, idrak və düşünmə fəaliyyətinin təşkili üçün mühüm didaktik resurs kimi çıxış edir. Onların struktur və funksional xüsusiyyətlərinin dərindən mənimsənilməsi müəllimlərə şagirdlərin mətnlə iş bacarıqlarını sistemli şəkildə formalaşdırmaq, məlumatların tənqidi təhlilini təmin etmək və elmi təfəkkürü inkişaf etdirmək imkanı yaradır (Kərimov, 2015).

İNFORMATİV MƏTNLƏRİN ŞAGİRDLƏRİN TƏNQİDİ DÜŞÜNMƏ VƏ ANALİTİK BACARIQLARINA TƏSİRİ

Tənqidi düşüncə yalnız əldə edilən məlumatı qəbul etməklə kifayətlənməyən, onun üzərində düşünməyi, onu təhlil etməyi və alternativ yanaşmalar axtarmağı özündə birləşdirən idrak fəaliyyətidir. Bu bacarığın inkişafında informativ mətnlərin xüsusi rolu vardır. Məlumatverici xarakter daşıyan və obyektiv faktlara əsaslanan bu mətnlər şagirdlərin analitik təfəkkürünü formalaşdırır, onları nəticə çıxarmağa və sübut əsasında fikir bildirməyə təşviq edir (Günəş, 2007). Şüurlu oxu yalnız mətni anlamaq ilə məhdudlaşmır; bu proses həmçinin təfəkkürün inkişafı və nitq fəaliyyətinin təşkili kimi məqsədləri də əhatə etməlidir (Xamrayeva, 2004). Bu o deməkdir ki, oxu mətnləri şagirdlərin tənqidi düşünməsini inkişaf etdirməklə yanaşı, onların nitq bacarıqlarının da formalaşmasına əhəmiyyətli dərəcədə təsir edir. Belə ki, informativ tipli mətnlərlə iş zamanı şagirdlərdən oxuduğunu anlamaq və təhlil etmək bacarıqları tələb olunur ki, bu da idrak fəallığına yiyələnmiş şagirdin nitq bacarıqlarının təkmilləşməsinə gətirib çıxarır.

Məktəblərdə və tədris prosesində məlumat xarakterli (informativ) mətnlər şagirdlərin biliyini artırmaq, onların dünyagörüşünü genişləndirmək və faktlara əsaslanan oxu bacarıqlarını inkişaf etdirmək baxımından mühüm yer tutur. Bu tip mətnlərin əsas məqsədi – müəyyən bir mövzu barədə oxucuya dolğun, dəqiq və qərəzsiz informasiya təqdim etməkdir. Bu çərçivədə aşağıda verilmiş "Günəş balığı" haqqında parça (şəkil 1) informativ mətn nümunəsi kimi təqdim edilə bilər.

Bundan başqa, mətn boyunca verilən məlumatlar dəqiq ölçü və faktlarla dəstəklənir. Məsələn, uzunluğu: 1.8–3.5 metr; çəkisi: 2 tona yaxın; yumurtaların sayı: təqribən 300 milyon. Bu, informativ mətnlərin əsas xüsusiyyəti olan faktlara əsaslanma prinsipini özündə əks etdirir.

Mətnlə bağlı təqdim olunan test sualları da informativ mətnlər üzrə oxu bacarıqlarını qiymətləndirmək məqsədi daşıyır. Belə ki, anlama

Şəkil 1 6-cı sinif səviyyəsi üzrə mətn tapşırığı və sualları

*Günəş balığı pis qoxusu və dadsız əti olan Molidae fəsiləsinə aid balıq növüdür. **1.** Günəş balığının köpək balığını xatırladan üzgəcləri var. Onların uzunluğu 1,8-3,5 m arası dəyişir, çəkisi isə 2 tona yaxındır.*

*Bu balıq digər balıqlar kimi sürətlə hərəkət edə bilmir. Quruluş cəhətdən də digər balıqlardan fərqlənir. Qarın üzgəcləri olmadığı üçün fərqli bir görünüşə malikdir. **2.** Quyruq üzgəci geniş olsa da, üzgüçülük üçün istifadə etmir. Dorsal üzgəci ilə irəliləyir. Təxminən 15 sm-lik qalın bir dərisi var. Günəş balığı yavaş hərəkət edir, isti sularda yaşayır. Digər balıqların yumurtalarını yeyirlər. Bu vəziyyət balıq növlərinin ..... təhlükə altına salır.*

***3.** Xüsusilə isti və mülayim sulara üstünlük verən balığı günəşli yerlərdə görmək olar. Dəniz canlıları ilə yanaşı kiçik balıqları da yeyirlər. Çoxlu yumurta qoyur. Təxminən 300 milyon yumurta qoyurlar. **4.** Yumurtadan çıxan balıqların uzun onurğaları var. Günəş balığının orta ömrü 20-25 ildir.*

1. Mətndə altından xətt çəkilmiş sözə əsasən doğru fikri müəyyən edin.

	Mətndəki mənası		***Mətndən kənar mənada işləndiyi cümlə:***
	Həqiqi məna	***Məcazi məna***	
1.	*		*O həmişə mənim düşüncələrimdə yaşayır.*
2.		*	*Onlar bu hadisəni dərindən yaşadılar.*
3.		*	*Yüksək binada yaşamaq təhlükəlidir.*
4.	*		*Qədim ölkədə yaşayır.*

A) 1 B) 2 C) 3 D) 4

2. Mətnə əsasən cədvəldəki uyğun fikirləri müəyyən edin.

Doğrudur	***Yanlışdır***	***Ehtimaldır***
1. Yalnız balıqla qidalanırlar *2. Molidae fəsiləsinə aid balıq növüdür.*	*3. Daha çox soyuq sularda yaşayırlar.* *4. Quruluş cəhətdən də digər balıqlardan fərqlənir.*	*5. İnsanlar tərəfindən yeyilmir.* *6. Təxminən 300 milyon yumurta qoyurlar.*

A) 2, 3, 5 B) 3, 4, 5 C) 1, 3, 6 D) 2, 5, 6

bacarığının yoxlanılması üçün uyğunsuz fikirlərin seçilməsi ilə şagirdin mətnə diqqətlə yanaşması qiymətləndirilir, leksik məna bilikləri üçün "yaşamaq" sözünün məcazi və həqiqi mənada istifadəsi şagirdin dil duyumunu yoxlayır. Şagirdin termin bazasını yoxlamaq məqsədilə "fəsilə" sözünün elmi izahı soruşulur, eləcə də məntiqi əlaqə qura bilmək bacarığına görə cümlənin uyğun yerə əlavə olunması tapşırığı təqdim olunur (Pardo, 2004).

NƏTİCƏ

İnformativ mətnlərin tədrisi müasir təhsil prosesində şagirdlərin koqnitiv, kommunikativ və tənqidi düşünmə bacarıqlarının inkişafında mühüm əhəmiyyət daşıyır. Bu mətnlərin əsas məqsədi faktlara əsaslanan məlumatları sistemli şəkildə təqdim etməklə şagirdlərdə analitik təhlil, nəticə çıxarma və məlumatları müqayisə-etmə bacarıqlarını formalaşdırmaqdır. İnformativ mətnlərin struktur mürəkkəbliyi və terminoloji zənginliyi onların mənimsənilməsini müəyyən qədər çətinləşdirsə də, məqsədyönlü, mərhələli və sistemli tədris prosesi vasitəsilə bu çətinliklər minimuma endirilə bilər.

Tədqiqatlar göstərir ki, ibtidai siniflərdən başlayaraq informativ mətnlərlə ardıcıl şəkildə işləmək şagirdlərin idrak fəaliyyətini stimullaşdırır, onların mətnin məzmununu dərk etmək, informasiyanı seçmək və əlaqələndirmək bacarıqlarını gücləndirir (Read, Reutzel & Fawson, 2008). Belə mətnlərin tədrisə daxil edilməsi yalnız oxu vərdişlərinin inkişafına deyil, eyni zamanda şagirdlərin dil, məntiq və elmi düşünmə qabiliyyətlərinin formalaşmasına da töhfə verir. Bu isə gələcəkdə müxtəlif fənlər üzrə biliklərin mənimsənilməsində, elmi-nəzəri düşünmə mədəniyyətinin formalaşmasında mühüm rol oynayır.

İnformativ mətnlərin öyrədilməsi prosesində müəllimlərin məqsədi yalnız məlumat ötürmək deyil, həm də şagirdlərdə müstəqil öyrənmək, sual vermək və araşdırmaq vərdişlərini inkişaf etdirmək olmalıdır. Bu baxımdan, informativ mətnlərlə iş təkcə dil və ədəbiyyat fənninin deyil, bütövlükdə təlim-tərbiyə prosesinin strateji istiqamətlərindən biri kimi qəbul edilməlidir.

Nəticə etibarilə, informativ mətnlərin tədrisi müasir təhsil sisteminin strateji istiqamətlərindən biri kimi qiymətləndirilməlidir. Bu mətnlərin məqsədyönlü və sistemli şəkildə tədrisə inteqrasiyası təlimin məzmun komponentinin elmi, məntiqi və kommunikativ əsaslarının möhkəmləndirilməsinə xidmət edir. İnformativ mətnlərin öyrədilməsi yalnız şagirdin dil bacarıqlarının inkişafını deyil, həm də onun düşünmək, qavramaq və tətbiq etmək fəaliyyətinin formalaşmasını təmin edir.

Müasir pedaqogika elmi sübut edir ki, şagirdlərin idrak fəallığını, oxu mədəniyyətini və analitik düşünmə qabiliyyətini inkişaf etdirmək üçün tədris prosesində informativ mətnlər əsas öyrənmə mənbəyi kimi istifadə olunmalıdır. Bu baxımdan, müəllimlər yalnız mətnin məzmununu izah edən deyil, eyni zamanda şagirdin düşünmə prosesini istiqamətləndirən, onu tənqidi və yaradıcı şəkildə oxumağa sövq edən bələdçi rolunu oynamalıdırlar.

Tədris prosesində informativ mətnlərdən istifadə fəal öyrənmə mühitinin formalaşdırılmasına, şagirdin öz biliyini inşa etməsinə və məlumatları yeni kontekstlərdə tətbiq etməsinə şərait yaradır. Belə yanaşma nəticəsində şagirdlər öyrəndikləri bilikləri yalnız reproduktiv səviyyədə deyil, həm də transformativ səviyyədə mənimsəyirlər. Bu onların metakoqnitiv bacarıqlarını, yəni öyrənmə prosesinə nəzarət, strategiya seçimi və nəticəni qiymətləndirmə qabiliyyətlərini inkişaf etdirir.

Bütün bu cəhətlər bir daha göstərir ki, informativ mətnlərin tədrisi təkcə dil və ədəbiyyat fənlərinin deyil, bütövlükdə ümumi təhsil fəlsəfəsinin əsas istiqamətlərindən birinə çevrilməlidir. Çünki bu mətnlər şagirdlərdə tənqidi və yaradıcı düşünməni formalaşdırmaqla onların ömürboyu öyrənmə bacarıqlarının inkişafına zəmin yaradır. Ömürboyu öyrənmə XXI əsrin təhsil paradiqmasının mərkəzində dayanır və informativ mətnlərlə işləmək bu bacarığın formalaşması üçün ən effektiv vasitələrdən biri hesab olunur.

İstifadə edilmiş ədəbiyyat

1. Akyol, H. (2006). *Türkçe öğretim yöntemleri.* Ankara: Pegem A Yayıncılık.
2. Duke, N.K., & Bennett-Armistead, V.S. (2003). *Reading and writing informational text in the primary grades: Research-based practices.* New York, NY: Scholastic.
3. Güneş, F. (2007). *Türkçe öğretimi ve zihinsel yapılandırma.* Ankara: Nobel Yayın Dağıtım.
4. Hall, K., Sabey, B., & McClellan, M. (2005). Expository text comprehension. *Reading Research and Instruction,* 44(2), 37–58.
5. Xamrayeva, İ.S. (2024). Psychological, pedagogical and methodological principles of forming conscious reading in primary school students with mental impairment. *CRJP – Current Research Journal of Pedagogics,* 5(5), Article 6. https://doi.org/10.37547/pedagogics-crjp-05-05-06
6. Kərimov, Y. (2015). *Ana dilinin tədrisi metodikası.* Bakı.
7. Özçelik, D.A. (1987). *Eğitim programları ve öğretim: Genel öğretim yöntemi.* Ankara: ÖSYM Eğitim Yayını.
8. Pardo, L.S. (2004). What every teacher needs to know about comprehension. *The Reading Teacher,* 58(3), 272–280.
9. Read, S., Reutzel, D.R., & Fawson, P.C. (2008). *Building academic literacy through informational texts.* Boston, MA: Pearson Education.
10. Saenz, L.M., & Fuchs, L.S. (2002). Examining the reading difficulty of secondary students with learning disabilities. *Remedial and Special Education,* 23(1), 31–41.
11. Singer, H., Harkness, J., & Stewart, J. (1997). Constructing meaning with content-area texts: A study of reading comprehension. *Journal of Educational Psychology,* 89(1), 82–90.
12. Weaver, C.A., & Kintsch, W. (1996). Expository text. In R. Barr, M.L. Kamil, P. Mosenthal, & P.D. Pearson (Eds.), *Handbook of Reading Research* (Vol. II, pp. 230–245). Mahwah, NJ: Lawrence Erlbaum Associates.